# Vətən qarşısındakı övladlıq borcunu şərəflə yerinə yetirdi



**Erməni işğalçıları zaman-zaman torpaqlarımıza hücum edəndə Vətən qeyrəti çəkən oğullar silaha sarılaraq yurdun müdafiəsinə qalxıblar. Cəsarətlə vuruşaraq düşmənə qalib gəliblər, doğmalarının yanına zəfərlə qayıdıblar. 2020-ci il sentyabr ayının 27-də erməni işğalçıları yurdumuza hücum edəndə Fərid Adıgözəlov da düşmənlə vuruşmaq üçün döyüşlərə atılmışdı.**

Fərid Adıgözəlov 8 sentyabr 1992-ci ildə Naftalan şəhərində dünyaya göz açmışdı. Həmin ərəfədə torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər gedirdi. O vaxtlar bəlkə də heç kimin ağlına gəlməzdi ki, Fərid də böyüyüb Qarabağ uğrunda vuruşacaq.

2009-cu ildə Fərid Adıgözəlov orta məktəbi bitirdi. 17 yaşlı gəncin ürəyi arzu və istəklərlə dolu idi. Ürəyində dolaşan arzulardan ən ülvisi Vətənə əsgər olmaq idi. Bu arzusuna 2010-cu ildə çatdı. Yaşıdları ilə bərabər ordu sıralarına yollandı. Əyninə əsgər forması geyinib Vətənə xidmət etdi.

Əsgəri xidmətini başa vurandan sonra Fərid Adıgözəlov başqa arzularının arxasınca getdi. Amma çox keçmədi ki, Vətənə olan sonsuz sevgi onu yenidən ordu sıralarına qaytardı. O, əyninə hərbi forma geyindi, ömrünü ordu həyatına bağladı. Fərid müddətdən artıq həqiqi hərbi qulluqçu kimi xidmətə başladı.

27 sentyabr 2020-ci ildə Fəridin, eləcə də minlərlə Vətən oğlunun Qarabağı azad etmək arzusunu həyata keçirmək üçün imkan yarandı. Tarixin həmin günündə ermənilər yeni ərazilərimizi işğal etmək məqsədilə mövqelərimiz üzərinə hücuma keçdilər. İkinci Qarabağ müharibəsi başladı. Elə ilk günlərdən Fəridin xidmət etdiyi hərbi hissənin şəxsi heyətini döyüşlərə cəlb etdilər. Onlar Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində vuruşurdular. Düşmən nə qədər müqavimət göstərsə də, onlar irəliləyirdilər. Erməni işğalçıları uzun illər möhkəmləndikləri mövqelərdə gizlənərək müdafiə olunmağa çalışırdılar. Fəridgil qəsbkarların mövqelərinə mərmiləri dolu kimi yağdırırdılar. Çox keçmədi ki düşmən əks-hücumlar qarşısında dayana bilməyərək geri çəkildi. Fəridgil uğurla başa çatan döyüşlərlə Suqovuşan və Talış kəndlərini işğalçılardan azad etdilər. Artıq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun uğurlu döyüşləri başlamışdı. Qəsbkarlar geri çəkildikcə Fərid idarə etdiyi tankı Qarabağın dərinliklərinə doğru sürürdü.

Amma cəsur əsgər Fərid Adıgözəlovun Qarabağ uğrunda gedən döyüşləri yarımçıq qaldı. 18 oktyabr 2020-ci ildə Talış kəndi istiqamətində gedən əməliyyat zamanı üzərinə düşən tapşırığı yerinə yetirərkən şəhid oldu. Yaxınları, doğmaları Fəridi acı göz yaşları içində qoynunda dünyaya göz açdığı Naftalan şəhərində dəfn etdilər.

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi hünər və qəhrəmanlığa görə Adıgözəlov Fərid İlqar oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medallarına layiq görüldü.

***M.VAHİD,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 29 mart, № 64.- S.11.